

Təbiətin hökmü olsaydı məndə...

BƏXTİYAR VAHABZADƏ

12

ƏSƏRLƏRİ

Xalq şairi Bəxtiyar Vahabzadənin əsərlərinin XII cildinə ("Azərbaycan" nəşriyyatı, 2007) ustadın son illərdə yazılmış, müvafiq cildlərə düşməyən və yenidən işlənmiş şeirləri daxil edilmişdir.

Kitabın tərtibçisi Esmira Fuadın şairin yaradıcılığından söz açan məqaləsini ixtisarla veririk.

O, söz-söz, kəlmə-kəlmə zəmanəsinin aynasını yaratdı. Bu aynanın hissəcikləri bir sevgilidən başlayaraq Vətənlə, millətlə, Ana dililə, nəhayət, Azərbaycana sevgi ilə bütünləşən ilahi məhəbbətdən yoğrulub. Və həmin aynada səmimi, cana yaxın, təbii bir Bəxtiyar dünyası da yansıyır. Bu dünyanın əfsununa bələnənlər, Bəxtiyar sözünə aşiq və vaqif olanlar yüzlər, minlər deyil, milyonlarcadır. Milyonların könül taxtında əyləşən o müqtədir şair — söz bahadın, məhz bu dibsiz sevgiyə görə Bəxti yar olmuş Bəxtiyar Vahabzadə kimdir?

Bu sualı o qədər cavablandıranlar olub ki!.. Məşhur qırğız yazıçısı Çingiz Aytmatov: "Bəxtiyar Vahabzadə əsrin şairidir" — deyib.

İstedadlı cərrah Nurəddin Rzayevin yanaşması fərdi, özünəməxsusdur: "Bəxtiyanın çox gözəl dəst-xətti var. O, heç kimə bənzəmir. Onun "Gülüstan", "Şəbi-hicran", "Etiraf" əsərlərini oxuduqca insan yenidən oxumaq istəyir. O, çox gözəl, səmimi, sadiq, müsbət keyfiyyətlərini sadalamaqla tükənməyən dostdur".

Və bu qırışlarla süslü üz, dərdli gözlər çox sevdiyimiz, Türkiyədə Azərbaycanımızın səsi və çarpan qəlbi Yavuz Bülənd Bakilərə görə "Bütün türk dünyasının ortaq səsi, sevən ürəyi, aydın üzü və gözəllik cizgisi, rəmzidir".

Vətəni sevənlər, millətini, doğulduğu torpağı, ata yurdunu dəlicəsinə sevənlər onun uğrunda canını fəda edər, şəhidlik məqamına yüksələrlər. Məni qınamayın, etirafıma görə, onu dinlədikcə, yaşantılarını müşahidə etdikcə düşünürdüm ki, Bəxtiyar müəllim diri ikən şəhiddir. Azərbaycançılıq, türkçülük ideologiyasının, Gülüstanın, Qarabağın, Dərbəndin, İrəvanın, düşmən tapdağında inləyən əsir torpaqlarımızın şəhidi...

Yavuz Büləndin uca Tanrıya xitabən dilədiyi "Allahım! Mənə ağlamasını bilən bir cüt göz ver" — arzusunu Bəxtiyar Vahabzadənin gerçəkləşdirdiyi çılpaq bir həqiqətdir:

Min lakə vurdular şərəfimizə,
Verdik, sahibimiz yenə "ver" dedi.
Qanımızı sorub, üstəlik, bizə
Biri "baran" dedi, biri "xar" dedi.
Bizi həm yedilər, həm də mindilər,
Sonra arxamızca gileyləndilər.

Beləcə, hamının görə bilmədiyini görə-görə, hər kəsin yaza bilmədiyini təxəyyülün, xəyalın əfsanəvi qanadlarından alaraq çəkici bədii sözə çevirib yaza-yaza, əsasən *insan* adlı bəşər övladının daxili mükalimələrini, özünüdərk yollarında çəkdiyi iztirablarını, iç dünyasının cəngi-cidalını, bu iztirablı, məşəqqətli yollarda, mənəvi təmizlənmə prosesində qüsurlarını dərk etməsini duya-duya, görə-görə, nənəsinin danışdığı nağılları, babasının əməksevərliyini xatırlaya-xatırlaya, dünyanın əvvəlinin hardan başlanıb, harada sona yetəcəyini çözələyə-çözələyə bugünkü Bəxtiyar Vahabzadə oldu. O, qələmə aldığı mövzunu, hadisəni sadəcə müşahidə etməyib, onları yaşayıb, iştirakçısı olub, özündən heç nə uydurmağa çalışmayıb, duyduğunu yazıb. Bir insan, hər birimiz kimi yaşadığı hisslərin, duyğuların həssas ürəkli bir şair kimi səmimi ifadəçisi olmağı bacarıb, nəticədə sözlər sinəsindən bulaq kimi qanyaxıb daşıb, alovlanıb, odu özünü də, oxucusunu da yandırıb-yaxıb. Duyub hiss etdiklərini yazan Bəxtiyar Vahabzadə yanıqlı *ana* laylası ilə kökləndiyi böyük ruha sadiq qalıb. Daim o düşüncədə olub ki, muğam üstündə həzin-həzin söylənən laylaların ecazkar ahəngi körpəni min illərin o üzündən süzülüb gələn doğma ruha — milli varlığımıza, özümüzə, soy-kökümüzə bağlayır. Bu məsələnin önəmliliyini "Beşik" şerində göstərib.

Şair insan qəlbində yanğının, doğma dilə, doğulduğu torpağa, bağrından qopduğu xalqa, Vətənə yanğının — ədəbi şölə saçan sevginin laylalardan qanyaqlandığını əsərlərində önə çəkir. Onun üçün Vətən gözəlliklər məskənidir, gözlə görülən, ələ götürülən bilən maddiyyat deyil. Bəxtiyar müəllim üçün Vətən ilk öncə, onun torpağı üstündə, sinəsində gəzən insanların tarixi, dili, dini, mədəniyyəti, ədəbiyyatı, adət-ənənələri, törələri, musiqisi, ruhani dünyası — mənəviyyatıdır. Və şair yaradıcılığında bu mənəviyyatın qədrini bilən müqəddəs keşişçilərini, əbədi yaşadan qələm sahiblərini, kəfəni boynunda mübarizə meydanına atılan, millətinin tarixini yaradan və yazan, tarixin özü qədər dəyərli və böyük olan ərənlərimizi, şəhidlərimizi vəsf edir.

"Şəbi-hicran"da dahi Füzulinin, "Ağlar-güləyən"də ölməz Sabirin, "Zindanda şeir"də qüdrətli H.Cavidin, "Nakam"da dərdli M.Hadinin, "İstiqlal" və "Şəhidlər"də müqəddəs şəhidlərimizin obrazlarını yaradan Bəxtiyar Vahabzadə onlara ədəbi heykəl qoymaqla bərabər, yurddaş, vətəndaş mövqeyini də bildirdi. Şair yazdı və yazdıqlarına inandı ki:

İnsan insan olur öz hünəriylə,
Millət millət olur xeyir-şəriylə.
Torpağın bağrına cəsədləriylə
Azadlıq toxumu səpdi şəhidlər.

1990-cı ildən səpilən azadlıq toxumları öz bəhrəsini verdi. Azərbaycan tarixi müstəqilliyinə qovuşdu, milyonlarla soydaşlarımız kimi, Bəxtiyar Vahabzadə də sandı ki, Bəxtiyarlığına qovuşdu. Müstəqillik adlı əvəzsiz nemətin qorunması, əldən verilməməsi üçün yenidən mücadiləyə qoşuldu. Lakin ömrü boyunca olduğu kimi, yenə də millətinin uğruna, sevincinə sevindi, nöqsanlarına, çatışmazlıqlarına, dərdlərinə kədərləndi. İmperiya buxovlarından qurtulan Azərbaycanın yeni savaşa, Qarabağ uğrunda işğalçı Ermənistanla ədalətsiz müharibəyə sürüklənməsi sinəsinə dağ çəkdi. Qarabağ dərdi dözülməz ağrıya çevrildi ürəyində... İtirilən torpaqlarımızın, şəhid ruhların feryadından qulaqları tutuldu, Ölkəni bürüyan çadır şəhərciklərinin, döyməyə bəla qapısı olmayan bu çadırlarla keşkin təzad təşkil edən rüşvətxor, hanı vəzifə sahiblərinin, qoluzorlu məmurların ucaltdığı villaların, erməni tapdağında inləyən əsir torpaqlarımızın adlarını restoran, şadlıq evləri və kafələrə verərək yaşatmağa çalışan vətən övladlarının qeyrət damarının bu dərəcədə boşalmasının dərdini çəkir. "Yanıq Kərəm"iyə şıdırğı oynayan cavanların zövqsüzlüyünün, ana dilində danışmağı əskiklik sayan ədabazların əqidəsizliyinin, həyata mədəsinin gözü ilə baxan məsləksizlərin dərdi şairin yuxusunu erşə çəkir, daim öz-özü ilə cəngi-cidalda olan, narahat ömür yaşayan, hər axşam özünü, "məni yurddaş edən bu el-oba üçün bu gün nə etdim?" — deyib sorğulayan Vətən oğlu kimi, xalqının heç olmasa ümummilli məsələlərdə cəbhələrə bölünməyərək bir araya gəlməsi, böyük Vətən naminə, xoşbəxt gələcək, bütün dərdlərdən azad Azərbaycan naminə əl-ələ verməyi vicdən vacib sayan Bəxtiyar Vahabzadə bu birlik olmayınca biriliyin taleyimizdən qaçaq düşəcəyinin ağrısını yaşayır:

Verib yurdumuzu çirkin əllərə,
Bir ovuc vətəni məhallələrə
Bölüb, kiçiltməyi tərgitməyincə,
Köhnə vərdişləri tərk etməyincə,
Ucalıq taxtından enən millətin,
Bu gün dilənçiyə dönən millətin
Şərəfi, şöhrəti, ulu mənliyi,
Kimliyi, qüruru, bəy ərənliyi
Yenidən özünə qayıtmayınca,
Dilindən, dinindən, özündən dönən,
Əhdə vəfasından, sözündən dönən
Yaltaq tüfeylilər faş olmayınca,
Zibil qutusuna atılmayınca,
Vallahi, dünyamız düzələn deyil.
Arzu etdiyimiz gün gələn deyil.

2000-ci ildə qələmə alıb bu şeri döyüşkən ruhlu şairimiz... Bəzən onu mövqeyində yumşalmalara görə bica yerə qınayanlar, bəzi məsələlərin üstündən 70-ci illərin ehtiyatlılığı ilə adladığını söyləyənlər da tapılır. Yazdıqlarını, illərdən bəri qələmə aldıqlarını saf-çürük etmədən qərar verməyə tələsirik həmişə. "Məni siyasətdə deyil, şeirlərimdə axtarın" — deyən şairin axı bu üsyankar, döyüşkən poeziyasının hər misrasında onun yaralı, dərdli ürəyi çırpınır. Siyasi arenada bir qütb ulduzu tək yanıb-sönməsini səmimiyyətlə etiraf edən şair "Mən siyasət adamı deyiləm. Siyasət demək istədiyini yox, məqamında lazım olanı demək, vəziyyətdən ustalıqla, soyuq başla çıxmağı bacarmaq imiş. Mənim kimi sadəlövh, sadəqəlb, daha çox ağılla deyil, hisslə düşünən şair bunları haradan bilsin? Və mən qərara gəldim ki, söz adamı siyasətlə məşğul olmamalı, sözünü kürsülərdən deyil, bədii yaradıcılığı ilə deməlidir" — etirafında bulunaraq xalqın, Azərbaycanın taleyüklü məsələlərinə həssaslıqla yanaşaraq bütün dövrlərdə poetik münasibətini bildirməkdən əsla çəkinməyib:

Biri-birimizə uyuşan deyil,
Biri-birimizə tərs düşən olduq.
Biz vətən uğrunda döyüşən deyil,
Vəzifə uğrunda döyüşən olduq.

yaxud

Azadlıq! Nəhayət, qovuşduq sənə,
Amma deyəmmədik: "Şükür Allaha!"
...Elə bir gündəyik qollarımızda
Qandala çevrilib azadlığımız...
Vəzifə eşqinə, mənsəb eşqinə,
Qardaş-qardaşına gülle atırsa,
Düşmən əsgərinə, yad əsgərinə
Halal torpağını əgər satırsa,
Belə azadlığı istəmirəm mən,
Belə azadlığı istəməz Vətən!

— deyən şairin hansısa məsələnin üstündən ehtiyatla adladığını düşünmək olarmı?

Düşündüklərini, yaşadıqlarını cəsarətlə qələmə alan B.Vahabzadə milli və dini anlayışları vədhətdə görür və bütöv torpağı, azad Vətəni, müstəqil dövləti olan bir millətin, xalqın dini mənəviyyatının və mədəniyyətinin ölməzliyinə, əbədi yaşayacağına inanır. Vahid Allaha, "Qurani-Kərim"ə, Peyğəmbərə (s), onun şəriətinə sidq-ürəkdən inanan, son illər dini ədəbiyyatı daha çox mütalə edən Bəxtiyar müəllimin qənaətinə görə, İslam bütün təriqətlərin, məzhəb və partiyaların fövqündə durur. Düşünür ki, məişət çərçivəsində qapanıb qalan bəsit şüur ilə dünyanın gərdişini, həyatın mənasını, Allah-təalanın qüdrətini — elmi-fəlsəfi əsaslarında olan İslamı anlamaq olmaz. İnsan dünyaya nə üçün gəlir, nə istəyir, hara gedir, mənşəyimiz nədir, son dönüşümüz haradır? — suallarına cavab axtararkən elmə, idraka, fəlsəfəyə arxalanmadan kəçinmək olmaz.

Müdriklik çağını yaşayan şair israrlıdır ki, uşaqlarımız orta məktəbdən bilməlidirlər ki, hansı dinə mənsubdurlar. Onlara dinin əsasları, şəriətin ilkin qaynaqları tədris olunmalı, ali məktəblərdə isə dinin fəlsəfəsi öyrədilməlidir. Bütün fakültələrdə İslam dini tədris olunmalıdır, ancaq fanatizmə uymamaq şərti ilə. Dində fanatizmə getməksə çox təhlükəli, dəhşətlidir.

Uşaqlanmızın tərbiyəli, yurdsever insan kimi formalaşmasında müəllimlərin rolunu da əvəzsiz sayır. Ustad şairimiz şərəfli, məsuliyyətli, nəcib peşə sahiblərini — müəllimlərimizi dünyanın ən qiymətli kapitalı olan insanla işləyən, onun taleyini müəyyənləşdirən Böyük qüvvə kimi dəyərləndirir. Və bu böyük qüvvə — müəllim mənən təmiz, pak olmalı, sinəsində böyük vətəndaş ürəyi gəzdirməlidir. Müəllim Vətəni, onun tarixini, dilini, mədəniyyətini, ədəbiyyatını bilməli, sevməli və şagirdlərinə də sevdirməli, onları məhz Vətənə namusla xidmət etməyə hazırlamalıdır. Bəxtiyar poeziyası fəlsəfi, əxlaqi-didaktik, vətənpərvərlik ruhu aşılayan mübariz poeziyadır. Bəxtiyar poeziyası, həm də sevgi, məhəbbət, dünyəvi və ilahi eşq poeziyasıdır. Könül çırpıntıları, qəlb ağrıları, fəlsəfi düşüncəsini qapsayan sevgi lirikasında daha aydın duyulur. Qəlbinin yanğısı, eşqə təşnə ürəyinin sızıntıları nə qədər çox olsa da, aşiq şairə sanki bu yanğı səadət, özündənkeçmə xoşbəxtliyi gətirir. Bəxtiyar Vahabzadə dünyada var olan hər şeyə məhəbbətlə, sevginin gözü ilə baxır. Şairə görə ana təbiəti də məhz sevgi yaşadır və çiçəklər, güllər, böcəklər, quşlar məhəbbətin dili ilə danışır. Eşqsiz ürəyi soyuq bir daş parçası sanan aşiq Bəxtiyar sevənləri dünyanın ən yaxşı, ən bəxtiyar insanı hesab edir. Onun düşüncəsinə görə, insan nə üçün sevdiyini bilməz və yalnız könlünün səsini dinlər:

Neçün sevdiyini bilmədən, mən də
Sevirəm, sevirəm, insan sevəndə
Yalnız öz könlünün səsini dinlər,
Neçün sevdiyini bilməz sevənlər.

Və insan sevən, dərdlərini bölüşən, tənhalığına meydan oxuyan, könlünə həmdəm olmağı bacaran qüdrət sahibi, dostu, arxası, köməyi — sevgilisi varsa, qəm eləməyə dəyməz, yaşamağa dəyər...

Bir günəş bəs edər, pərişan olma,
Sənin yüz Kür qədər göz yaşın olsa.
Min dərd hücum etsə, könül, sıxılma,
Bir nəfər dərd bilən sirdaşın olsa.

Və əziz oxucu, haqqında bəhs etdiyimiz bu kitab zəmanəmizin böyük fikir və söz adamı, filosof şair, aşiq Bəxtiyar Vahabzadənin orijinal fikir dünyasına, cazibədar, ecazkar sevgi dünyasına son dövrdə açılan ən ikinci pəncərədir. Şair bu ən ikinci pəncərəni açmaqda israrlıdı...

Bəlkə də ahıllıq çağını yaşayan şairin artıq kamilləşmək də olan imanından doğur — poeziya dünyasına ən ikinci pəncərəni açmaqda israrı, inadı...

XII cildə son dövrlərdə yazdığı şeirlər, "Gülüstan" və "İstiqlal" poemalarının, eləcə də bəzi şeirlərinin yenidən işlənmiş variantları və yeddinci cildə düşməyən dərin fəlsəfi məna tutumuna malik, ata sözü siqlətli aforizmləri daxil edilmişdir. Bəxtiyar müəllimin hələlik sonuncu olan "Əsərləri"nin XII cildinin də poeziya, şeirsevərlərin böyük maraq və sevgisini qazanacağına əminik. Ona da əminik ki:

Bülbül nalə çəkər vüsal dəmində,
Gülün laləkləri solar çəməndə.
Təbiətin hökmü olsaydı məndə
Qanqalın ömrünü güle verərdim

— deyən Bəxtiyar Vahabzadənin əlində həqiqətən hökmfərmanlıq olsaydı və daha bir şair ömrü yaşasaydı, yenə də yorulub-usanmadan sevgi dolu şeirlər yazar, oxucularının ruhunu oxşayar, qəlbini fərəh hissi ilə doldurar və hər birimizi bu Vətənin milli-mənəvi sərvətlərinə, mədəni irsinə, tarixinə sahib çıxmağa səsləyərdi...

Esmira FUAD
filologiya elmləri namizədi

Şairlik taledir

Hazırda Almaniyada yaşayıb-yazan həmyerlimiz Simax Şeyda bu günlərdə yenə doğmaları, dostları görmək üçün vətənə gəlmişdi. Ötən saylarımızın birində redaksiyamızın qonağı kimi onunla söhbəti oxuculara təqdim etmişdik.

Simax Şeyda xaricə yola düşməzdən əvvəl Bakıda "Araz" nəşriyyatında təzəcə çapdan çıxmış "Məndən istər hər gözəl yar" adlı qəzəllər kitabını bizə bağışladı.

Qələm dostumuzu yeni ktiabının nəşri münasibətilə təbrik edir, xalq şairi Nərman Həsənzadənin əsərə yazdığı ön sözdən bir hissəni diqqətinizə yetiririk.

Almaniyanın Münhen şəhərinin Alfred Şmid küçəsindəki yaşıl küknar ağaclarının əhatə etdiyi göz oxşayan tikililərin birində 5 saylı binada, Azərbaycan və dağ yəhudilərinin dilində gözəl əsərlər yazan və dünyanın müxtəlif ölkələrində yaxşı tanınan neğməkar şairimiz yaşayır. Bu, Simax Şeydadır.

Şeyda onun təxəllüsüdür. Adı, soyadı Simax Yuşayevdir. Əllinci illərin əvvəllərində biz qədim Gəncədə tanış olanda o, təzə-təzə uşaq şeirləri yazırdı. O qədər səlis, axıcı dili var idi ki, oxuyan kimi əzbərləmirdi. Bəzən yeni ayaq açan, dişi minx uşaqların öz dilində yazır, əslində onların könlünü oxşayırdı.

...Göy dənizi dalğalar,
Nehrə kimi çalxalar.

Nəhayət, onun ilk "Təyyarə" adlı kitabı nəşr olundu. Həm tanındı, həm də sevilməyə başlandı. Simax Şeyda Oğuz rayonunda doğulub. 1940-cı ildə dörd yaşında ikən valideynləri ilə birlikdə Gəncəyə köçüb. Gənclə uşaqlarla qaynayıb-qarışıb, onların təhcəsində danışıb, şeirlər yazıb.

On səkkiz yaşında sevib-seçdiyi Məryəm ilə ailə həyatı qurub və xoşbəxt ömür sürməkdədir.

İndi oğlanları, qızları, on nəfərdən artıq nəvə-nəticələri toyda-düyündə, ad günlərində Simax Şeyda ilə Məryəm xanımın başına toplaşır, xoş əhval-ruhiyyə, əsl bayram şənliyi yaradırlar.

Yuşvayevlər ailəsi dünyanın hər yanına səpələnib. Neçə-neçə ölkədən məktub, teleqram alırlar. Ovladlarının bəziləri Bakıda, Moskvada, Amerikada, İsraildə ailə qurub yaşayırlar. Amma o gün olmur ki, evlərinə zəng çalıb valideynlərindən hal-əhval tutmasınlar.

Şairin Almaniyadakı evinə xarici ölkələrdən də çoxlu müsafir, məktub, teleqram gəlir: ondan məsləhət alırlar, poeziya simpoziumlarına, adəbi müsabiqələrə dəvət edirlər. Almaniyanın müxtəlif şəhərlərində yaşayan azərbaycanlılar onu öz şənliklərinə qonaq çağırır, məclisin başında ona yer verirlər.

İsrail Dağ Yəhudiləri Yazıçılar Birliyinin sədri Eldar Gurşümov qələm dostu S.Şeydanı haqlı olaraq "İki xalqın şairi" adlandırır. Yəhudi və Azərbaycan xalqlarının ədəbi əlaqələri sahəsində Simax Şeydanın xidmətləri əvəzsizdir. O, İsraile köçdükdən sonra hər iki dildə "Şirvanlı qız" və "Sor məni" adlı əsərlərini nəşr etdirib. Ümumiyyətlə, şairin on üç kitabının yansından çoxu Azərbaycandan bəhs edir. O doğulduğu, yaşadığı torpağı, xalqı heç vaxt unutmur, əksinə, harada yaşamağından asılı olmayaraq, Odlar Yurdunun ədəbi elçisi funksiyasından məmnunluq duyur. Bu nəcib xidmətlərə görə mən Azərbaycan ziyalıları adından qələm qardaşıma minnətdarlığımı bildirirəm. Onda hər şey təbii alınır — Qarabağ yarasından ürək ağrısı ilə danışması da, yəhudi-Azərbaycan dostluğundan, qədim əlaqələrimizdən hərarətlə bəhs etməsi də.

Bakı Dövlət Universitetini bitirdikdən sonra Simax Şeyda Gəncədə və Bakıda müxtəlif dövlət vəzifələrində işləyib. Azərbaycan mədəniyyətinin, xalq teatrlarının inkişafı yolunda gücünü əsirgəməyib. Onun ilhaminin ən qaynar çağlarında yazdığı menzum pyeslər, nağıllar, poemalar, nəşr etdirdiyi kitablar, eləcə də publisist məqalələr Azərbaycan həyatını leyaqətlə təmsil edib. O, indi də ailəsi ilə birlikdə Almaniyadakı evində Azərbaycan televiziyasının "Lider" və Az.TV kanallarına tamaşa edir. Qələm dostumun evi Azərbaycan muğamları yazılmış videokasetlərlə doludur. Elimizin folkloru, aşıq havaları onun dərindən bildiyi və vaxtilə elmi cəhətdən tədqiq etdiyi sahələrdəndir.

Xalq artistləri Mustafa Mərdanovla, Məmmədrza Şıxzamanovla, Ələkbər Seyfi ilə, Məmməd Bürcəliyevlə, Ələddin Abbasovla, cəfakeş şair Borsunlu Mezahirlə, dramaturq- alim Altay Məmmədovla, yazıçı-publisist Əhməd İsayevlə və bu məqalənin müəllifi ilə uzun müddət dostluğu, paklığı, səmimiliyi ilə qazandığı böyük nüfuz onu bir insan kimi xarakterizə edən cəhətdir.

2006-cı il iyun ayının ortalarında bu gözəl sənətkarın anadan olmasının 70 illiyini ölkənin ədəbi ictimaiyyəti, Azərbaycan Yazıçılar Birliyi, Quba və Oğuz eli təntənə ilə qeyd edib.

"Ədəbiyyat qəzeti" yubiliyara ayrıca səhifə ayırıb. Digər mətbuat orqanlarında da maraqlı yazılar dərc olunub. İsrail bəstəkarı Qod Mixaylov Simax Şeydanın 25-dən artıq şerinə musiqi bəstələyib. Yusif Ben Yuxay kimi görkəmli müğənninin ifasında bu mahnılar Azərbaycanda, İsraildə, Almaniyada, Amerika qitəsində səslənib.

Sənəti ilə əlaqədar olaraq Simax Şeyda əvvəl İsrailə köçüb. Burada sənətkarın ürəyində ağır əməliyyat aparılıb, bunun ardınca gözlərini müalicə etdirib. Lakin istənilən nəticə alınmayıb. Sağalmaq ümidi ilə sonra Almaniyaya gəlib. Təəssüf ki, dava-dermanın bir faydası görünmür. Oğuzdan Gəncəyə, Gəncədən Bakıya, ata-anasını itirəndən sonra isə Bakıdan İsrailə, İsraildən də Almaniyanın Münhen şəhərinə köçüblər. Məryəm xanım deyir ki, hər dəfə "xarici ölkəyə köçürük" — deyəndə evdə qab-qacaqdan tutmuş yorğan-döşəyə qədər qonum-qonşuya bağışlayıram ki, yükümüz yüngül olsun. Yalnız uşaqları, bir az da əyin-baş götürüb çıxırq. Almaniyada yetmiş yaşımızda, təzə-təzə ev-eşik qurmağa başlamışıq.

Ailənin bir əvəzsiz sərvəti vardır ki, bu, mənəviyyatca zənginliyi və gözü-könlü toxluğu, dünya malında zərrəcə tamahlarının yoxluğudur. Mən bunu evlərinə iki gün qonaq qalanda özlərinə də dedim.

Məryəm xanım ilahi bir qadındır. Simax Şeydaya uşaq kimi xidmət edir; bu əlilin aile həyatının sədəqət notlarıdır ki, hər gün, hər an səslənir. Evdə onlarla bir yerdə yaşayan Teymuru (ona ailədə Telman deyirlər) o qədər həssas, o qədər ürəyiyumşaq və istiqanlıdır ki, məni "əmi" deyə çağırır, oğlum Nazimə doğma qardaş gözü ilə baxırdı. Muğamatdan, aşıq havalarından doymaq bilmirdi. Bu il onun əlli yaşı tamam olub, bir az xəstəhalıdır və müalicə alır. Ürəyi genişdir. Ona vrəilmiş taksi və metro biletlərini bizə təklif edirdi.

Simax Şeydanın oğlu Müşfiq və qızı Firuzə ev-eşik sahibidirlər. Hərəsi şəhərin bir tərəfində yaşayır, amma elə gün olmaz ki, qəlb valideynlərini yoxlamasınlar. Rahilə adlı qızları isə ailəsi ilə Amerikada məskunlaşıb.

Simaxın yetmiş illik yubileyində övladları, qohum-əqrabaları, nəvə-nəticələri, dostları, qələm yoldaşları, onu təbrik üçün bizim Yazıçılar Birliyinin Nətəvan klubuna toplaşmışdılar. Onu təbrik edir, haqqında xoş sözlər deyirdilər. Həmin günlərdə mən səhhətimlə əlaqədar Bakıda deyildim. Yubiley videokasetinə Münhendə, Simaxgildə baxdım. Birliyin sədri, xalq yazıçısı Anar ölkənin yazarları adından yubiliyara qızılgül dəstəsi bağışladı, əlli illik ədəbi fəaliyyətindən, uşaqlar və böyüklər üçün yazdığı sənət incilərindən, habelə ədəbi əlaqələr sahəsindəki xidmətlərindən danışdı. Sonra da sözü xalq şairi Qabilə verdi.

Tədbir xeyli davam etdi. Şairin dostları bir-birinin ardınca kürsüyə qalxıb, ürək sözlərini söylədilər. Qabilin yumorları görüşə bayram şənliyi gətirirdi. Milli Məclisin üzvü, dağ yəhudisi Yevda Abramovun hərarətli çıxışı, dağ yəhudiləri icmasının sədri Semyon Borisoviçin Simaxın şərəfinə dediyi səmimi sözlər də həminin ürəyindəndi. Şair dostumuz A.Abdulla Simax Şeydanın heca vəznində yazdığı qəzəllən jannın özündə yenilik adlandırır və bir nümunə oxuyur.

Simax Şeyda yəhudi və Azərbaycan dillərini inceliklərinə qədər bilir. Kitablarında da onları bir-birindən ayırmır, bir yerdə təqdim edir. O, yeni nəğmə mətnləri üzərində işləyir. Azərbaycan və yəhudi şairlərindən elədiyi tərcümələr antologiyasını həvəslə çapa hazırlayır.

Simaxın çöhrəsində əbədi nur var. Üzü ürəyi kimi işıqlıdır. Onun pak ürəyindən süzülüb gələn bulaq suyu kimi duru şeirlər Azərbaycan və yəhudi xalqlarının həmrəylik simfoniyası kimi səslənir, bundan sonra da səslənecək, könülləri şəhər mehi kimi oxşayacaq.

Nəriman HƏSƏNZADƏ
xalq şairi